# Dövrün reallıqları yeni hədəflər müəyyənləşdirir

**Prezident İlham Əliyev 44 günlük Vətən müharibəsi və 23 saatlıq antiterror tədbirləri nəticəsində xalqımızın əsas ümummilli ideyasını gerçəkləşdirməyə nail olan, müstəqil Azərbaycanın yeni reallıqlarını yaradan və bu reallıqlara uyğun strateji hədəflər müəyyənləşdirən Liderdir.**

Tarixi Zəfərə imza atanda xalqımız tam əmin idi ki, işlərimiz yarımçıq qalmayacaq. Qalibiyyət rəmzi olan üçrəngli bayrağımız Xankəndidə, Xocalıda, Ağdərədə, Xocavənddə dalğalanacaq. Azərbaycan bu hədəfə sülh yolu ilə çatmaq üçün səy göstərsə də, buna hərbi yolla nail oldu. Ötən il sentyabrın 20-si çoxəsrlik tariximizə suverenliyimizin tam təmin olunduğu, Azərbaycanın həyatında yeni mərhələnin başlandığı dövr kimi yazıldı.

**(davamı 4-cü səhifədə)**



# Dövrün reallıqları yeni hədəflər müəyyənləşdirir

(əvvəli 1-ci səhifədə)

"Sentyabra qədər getdiyimiz yol məqsədyönlü yol idi, məqsədə hesablanmış yol idi, düzgün yol idi. İstər siyasi müstəvidə, istər hərbi müstəvidə, istər ölkəmizdə gedən proseslər nöqteyi-nəzərindən bu hadisə bütün işlərimizin, elə bil ki, son nidası idi. Bu gün biz 2024-cü ilə suverenliyini tam bərpa etmiş ölkə kimi, xalq kimi başlayırıq". Bu fikri həmin dövrü xarakterizə edən dövlət başçısı İlham Əliyev bildirib.

Qalib lider, Prezident İlham Əliyevin müstəqil və düşünülmüş siyasəti Azərbaycana böyük uğurlar gətirir. Bütün sahələrdə sürətli inkişaf gedir. İqtisadiyyatın ən mühüm göstəricisi olan Ümumi Daxili Məhsul hər il artır. İnflyasiyanın səviyyəsi dünyada baş verən iqtisadi göstəricilərin nisbətinə uyğun olaraq sabit saxlanılır. Qazanılan uğurlar, zəfərlər, həmçinin müəyyənləşdirilən yeni hədəflər bu reallığı təsdiqləyir ki, Azərbaycan daim irəliyə doğru hərəkət edir. Hər bir hədəfə zamanında nail olur. İrəli sürdüyü təşəbbüslər beynəlxalq dəstək qazanır. Hər bir enerji layihəsinin uğurlu sonluqla başa çatması əməkdaşlığın coğrafiyasının genişləndirilməsində əhəmiyyətli rol oynayır. Avropa ilə Asiyanın qovuşuğunda yerləşən Azərbaycan nüxtəlif mədəniyyətləri, dinləri bir araya gətirir, xalqlar arasında dostluq körpüsü yaradır. Azərbaycan belə ənənələri olan ölkə kimi dəyərləndirilir.

Ölkəmizin qazandığı nailiyyətlər, enerji, "yaşıl enerji", eləcə də nəqliyyat-logistika sahəsində xüsusilə müşahidə olunur. Cənub Qaz Dəhlizinin genişləndirilməsi, 2022-ci ilin iyulunda Avropa İttifaqı ilə Azərbaycan arasında enerji sahəsində strateji tərəfdaşlığa dair Anlaşma Memorandumunun imzalanması, Avropa enerji ixracının artırılması ölkəmizin enerji sahəsində regionun lideri və etibarlı tərəfdaş statuslarını bir daha təsdiq edir. Dünyanın ən böyük ikinci təsisatı olan, 120 dövlətin təmsil olunduğu Qoşulmama Hərəkatına uğurla sədrliyimiz, dünya dövlətlərinin yekdilliklə BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyasının Azərbaycanda keçirilməsinə dair qərar qəbul etməsi ölkəmizin yüksələn nüfuzunun əyani göstəricisidir. İqtisadi, sosial, mədəni və digər sahələrdə qazandığımız hər bir uğur bu gün Azərbaycanın sürətli inkişafını ifadə edir. Genişmiqyaslı işlər, sistemli və ardıcıl tədbirlər, dərin islahatlar nəticəsində Azərbaycan siyasi və makroiqtisadi baxımdan sabit, təhlükəsiz ölkə kimi səciyyələndirilir. Bu gün regionun siyasi, iqtisadi və mədəni mərkəzi məhz Azərbaycan hesab olunur.

Yeni dövrdə Prezident İlham Əliyevin rəhbərliyi ilə Azərbaycan dövləti regionda elə bir siyasi reallıq yaradıb ki, xarici dövlətlər bununla barışmağa məcburdurlar. Bu reallıqları Bakının iradəsindən kənar dəyişmək qeyri-mümkündür. Siyasi müşahidələr də göstərir ki, ölkədə və Cənubi Qafqazda cərəyan edən bütün iqtisadi və siyasi proseslər Bakının iştirakı ilə idarə olunur. Dünyanın inkişaf etmiş ölkələri Cənubi Qafqaz üzrə siyasətlərini Azərbaycanla razılaşdırırlar. Ölkəmiz Şərqlə Qərb arasındakı meqalayihələrin həm müəllifi, həm də icraçısı qismində çıxış edir. Dövlət başçısının dediyi kimi, heç bir kənar siyasi qüvvə iradəmizə zidd olan planlarını regionda həyata keçirə və bizə qəbul etdirə bilməz. Azərbaycanın tutduğu mövqe bu coğrafiyada Qərb üçün önəm kəsb edir.

Azərbaycan Avropanı Çinlə birləşdirən Orta Dəhliz vasitəsilə Mərkəzi Asiya ölkələrinə açılan qapıdır. Politoloqların qənaətinə görə, Avropa və Mərkəzi Asiya arasında alternativ ticarət yollarının dəstəklənməsi Qərbin də strateji maraqlarına uyğundur. Neft strategiyasının həyata keçirilməsi və Bakı-Tbilisi-Ceyhan neft, Bakı-Tbilisi-Ərzurum qaz boru kəmərlərinin istifadəyə verilməsi təkcə sosial-iqtisadi məsələlərin deyil, həm də xarici siyasət problemlərinin həlli üçün geniş imkanlar yaratdı. Azərbaycan borclu ölkədən donor ölkəyə çevrildi. Xalqımızın yaradıcı, qurucu, sülhsevər xarakterinə uyğun olaraq öz alicənablığı ilə dünya liderləri içərisində seçilən cənab İlham Əliyev uğurlu xarici siyasət həyata keçirir.

Bu baxımdan, 2024-cü il Azərbaycanın yeni dövrə yeni hədəflərini düzgün seçmək imkanı yaradır. Qeyd edək ki, Azərbaycanın bütün qütblərlə yüksək səviyyəli, bərabərhüquqlu və qarşılıqlı maraqlara söykənən əməkdaşlıq əlaqələri mövcuddur. Ölkəmizin Qərbi Avropa ilə əlaqələrinə baxsaq, Fransa istisna olmaqla digər ölkələrlə müsbət siyasi dialoq mövcuddur. Dövlət başçımız təkcə bu il Almaniyada iki dəfə səfərdə olub: fevral ayında dünyanın təhlükəsizlik məsələlərini nəzərdən keçirən Münxen Təhlükəsizlik Konfransında, apreldə isə Berlində "15-ci Petersberq İqlim Dialoqu"nun Yüksək Səviyyəli Seqmentində iştirak edib. Bu tədbirdə dünyanın 40-dan artıq ölkəsindən nümayəndələr məhz ölkəmizin ev sahibliyi edəcəyi COP29-un gündəliyini müzakirə etmək üçün bir araya gəlmişdi. Eyni zamanda Avropa İttifaqı ilə çoxşaxəli əməkdaşlıq, ələlxüsus Azərbaycanın Avropanın enerji təhlükəsizliyinə verdiyi töhfənin yüksələn dinamikası mövcuddur. Bu vaxta qədər Azərbaycan ittifaqın 10 ölkəsi ilə strateji tərəfdaşlığa dair sənədlər imzalayıb. Bolqarıstan və Slovakiya liderlərinin ölkəmizə səfərləri və Bakıda verdiyi açıqlamalar Azərbaycanın bu coğrafiya üçün əhəmiyyətini bir daha göstərir. Bu yanaşmanı Belarus və Tacikistan prezidentlərinin ölkəmizə səfərlərində də müşahidə etdik. Eyni sözləri Tacikistanın simasında bütün Mərkəzi Asiya ölkələrinə şamil edə bilərik.

Bu xronikaya Qazaxıstan prezidentinin, Gürcüstanın baş nazirinin, NATO-nun baş katibinin, Konqo və Qırğızıstan prezidentlərinin səfərlərini də əlavə etsək, ümumilikdə iqtisadi əlaqələrin şaxələndirilməsi, nəqliyyat, enerji, o cümlədən bərpaolunan enerji, təhlükəsizlik, siyasi dialoqun dərinləşdirilməsi, regionda inteqrasiya və əməkdaşlıq məsələlərinin məhz Bakıda müzakirə olunduğunu deyə bilərik. Azərbaycan-ABŞ münasibətlərində də diqqətçəkən dəyişikliklər var. İstər ABŞ Prezidenti Co Baydenin Azərbaycan Prezidenti cənab İlham Əliyevə Müstəqillik Günü ilə bağlı təbrik məktubunun mətni, istərsə də Prezident köməkçisinin ABŞ-da keçirdiyi görüşlərin və verilən açıqlamaların xarakteri Vaşinqtonun Azərbaycanı strateji tərəfdaş kimi qəbul etdiyini bir daha təsdiqləyir. Digər qütbdə - Çin və Rusiya ilə əlaqələrdə də yüksələn xətt müşahidə olunur. Hər iki ölkə rəsmilərinin qarşılıqlı səfərləri və verilən açıqlamalar göstərir ki, rəsmi Moskva və Pekində də Bakının baxışına, mövqeyinə xüsusi əhəmiyyət verilir. Eyni zamanda Çin və Rusiya ilə əməkdaşlıq Şərq-Qərb və Şimal-Cənub nəqliyyat dəhlizləri üzrə əlaqələrin dərinləşdirilməsi, inkişaf etdirilməsi zərurətinə əsaslanır. Azərbaycanın rolu hər iki dəhliz üzrə həlledicidir və bu, təkcə iqtisadi layihə kimi yox, həm də təhlükəsizlik zənciri kimi görünür.



Bütün bunlar belə deməyə əsas verir ki, Prezident İlham Əliyevin söylədiyi kimi, əldə olunan uğurlarla kifayətlənməməli, daim irəli baxmalıyıq. Zamanı qabaqlamaq əsas hədəfimiz olmalıdır. Bu baxımdan, qarşıda dövlətimizi daha böyük nailiyyətlərin gözlədiyini deyən Prezident İlham Əliyev İnvestisiya Proqramının bərpa işlərinin aparıcı olduğunu, bu il Qarabağda, Şərqi Zəngəzurda infrastruktur layihələrinin davam etdiriləcəyini, 140 min keçmiş məcburi köçkünün yaxın üç il ərzində öz dədə-baba torpaqlarına qayıdacağını bildirib. Prezident İlham Əliyev yeni mərhələnin reallıqlarının əsas memarı olmaqla yanaşı, həm də postmüharibə dövrünün gündəliyini müəyyənləşdirib ki, burada Böyük Qayıdış hədəfi xüsusi yer tutur.

Qalib Azərbaycan Prezidentinin bölgədə sülhün və təhlükəsizliyin möhkəmləndirilməsi istiqamətində ardıcıl səyləri və əldə etdiyi nəticələr regionu yeni dövrə aparır. Əminliklə deyə bilərik ki, Cənubi Qafqazın lider dövlətinə çevrilmiş ölkəmiz yeni dövrdə də bütün hədəflərinə nail olacaq.

**Mustafa KAMAL,**
**"Respublika".**

Respublika .- 2024.- 10 avqust, (№ 169).- S.4.